# Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı məruzə müzakirə olunub

**Fevralın 10-da Milli Məclisin Regional məsələlər komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi müzakirə olunub.**



Regional məsələlər komitəsinin sədr müavini Nurlan Həsənov ötən il yerli özünüidarəetmədə baş verən mühüm dəyişikliklərdən, son bələdiyyə seçkilərindən söz açıb, bələdiyyənin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsinin əsas aspektlərindən danışıb.

Gündəlikdəki məsələ ilə bağlı komitə sədrinin müavini bildirib ki, Ədliyyə Nazirliyinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı 2024-cü il üzrə məruzəsi dolğun və ətraflı hazırlanıb. Məruzədə həm bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət, həm də onlara metodoloji yardım üzrə il ərzində həyata keçirilən məqsədyönlü işlər, digər əhəmiyyətli tədbirlər geniş şəkildə əks olunub.

Daha sonra ədliyyə nazirinin müavini Toğrul Hüseynov bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsini təqdim edib.

O, 2024-cü ildə Ədliyyə Nazirliyində bələdiyyələrə inzibati nəzarəti həyata keçirmək və onların fəaliyyətinin səmərəliliyini artırmaq məqsədilə görülən işlər barədə məlumat verib. Nazir müavini bələdiyyələrin fəaliyyəti ilə bağlı metodoloji iş və maarifləndirmə, maliyyə idarəçiliyində şəffaflığı artırmaq üçün qanunvericilikdə edilən dəyişikliklər, bələdiyyə torpaqlarından qanunauyğun və səmərəli istifadə olunması və digər istiqamətlərdə görülən işləri diqqətə çatdırıb.

Bildirilib ki, 2024-cü ildə hüquq ekspertizasından keçən 102831 bələdiyyə aktının 97 faizi qanunvericiliyə uyğun olub.

Nazir müavini ümumilikdə 2024-cü il ərzində həyata keçirilən tədbirlərin ölkəmizdə bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin olunmasına, yerli büdcə gəlirlərinin artırılmasına, bələdiyyələrin yerli özünüidarəetmə orqanı kimi ictimai nüfuzunun yüksəldilməsinə və digər aktual məsələlərə həsr olunduğunu söyləyib.

Məruzə ətrafında aparılan müzakirələrdə komitənin üzvləri Tahir Rzayev, Aydın Mirzəzadə, Kamran Bayramov, Arzuxan Əli-zadə,Vasif Qafarov, Elman Məmmədov və "Bələdiyyələrin Fəaliyyətinin Təbliği" İctimai Birliyinin sədri Vüqar Cəfərov çıxış edərək məruzənin hərtərəfli hazırlandığını qeyd ediblər. Onlar bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin, onların maliyyə mənbələrinin dayanıqlığının artırılması, bələdiyyələrin birləşdirilməsi və yerli özünüidarəetmənin digər aktual məsələləri ilə bağlı bir sıra qeyd və təkliflərini bildiriblər.

Ədliyyə nazirinin müavini Toğrul Hüseynov deputatların səsləndirdikləri sualları cavablandırıb, qaldırılan məsələlərə aydınlıq gətirib.

Müzakirələrin sonunda Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi müsbət qiymətləndirilib və Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

İclasda deputatlar Səttar Möhbalıyev, Xanlar Fətiyev, Məzahir Əfəndiyev, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Baş İdarəsinin rəisi Elmin Həsənov və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 11 fevral (№ 30).- S.3.